

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 may 2025-ci il №31 (2940) https://mod.gov.az Qiymәti 30 qəpik


## Rusiya Federasiyasının Prezidenti Vladimir Putindən

Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Böyük Vətən müharibəsində Qələbənin 80-ci ildönümü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu yubiley tarixini qeyd edən ölkələrimizin vətəndaşları döyüş meydanlarında və arxa cəbhədə öz güclərini və həyatlarını əsirgəmədən nasist işğalçıları üzərində qələbəni yaxınlaşdıranları lazımınca qiymətləndirirlər.

Əminəm ki, həmin ağır illərdə bərkiyən şanlı dostluq və qarşılıqlı kömək ənənələri gələcəkdə də Rusiya ilə Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin inkişafı üçün etibarlı zəmin olacaq.

Azərbaycan torpağında yaşayan bütün veteranlara səmimi minnətdarlıq, ürəkdən gələn təbrik sözlərimi, möhkəm cansağlığı, əmin-amanlıq və uzunömürlülük arzularımı çatdırmağı xahiş edirəm.

Hörmətlə,

**Vladimir Putin**
**Rusiya Federasiyasının Prezidenti**

*Təlim*

## Bütün tapşırıqlar müvəffəqiyyətlə icra olundu

*2025-ci ilin döyüş hazırlığı planına əsasən, Quru Qoşunlarının artilleriya bölmələrində praktiki döyüş atışları həyata keçirildi. Yaxın və uzaq mənzilli artilleriya qurğularından gecə və məhdudgörmə şəraitində atış sınaqları yerinə yetirildi.*



Zabit Rauf Şirinov bildirdi ki, bütün sahələrdə olduğu kimi, artilleriya qoşunlarında da yeniliklər, yeni silahlar və onlardan istifadə qaydaları tətbiq edilir. Yay-qış tədris dövrlərində mərhələli şəkildə artilleriya bölmələri çöl təlimlərinə cəlb olunur. Onlar tədris zamanı mənimsədikləri bilik və bacarıqlardan istifadə edərək döyüş atışlarını yerinə yetirməklə nəyə qadir olduqlarını praktiki cəhətdən təsdiq edirlər.

Təlim mərkəzlərində tez-tez döyüş atışlı təlimlərin keçirilməsi təbiidir. Atıcı silahlardan da istifadə etməklə bütün növ silahlardan praktiki atışlar həyata keçirilir. Bu günlərdə artilleriya bölmələri praktiki döyüş atışlı təlimə cəlb olundu. Onlar yaxın və uzaq məsafədə yerləşən şərti düşməni məhv etmək barədə tapşırıqları yerinə yetirdilər. Təlim birliyin nəzdindəki artilleriya bölmələrində baş tutdu. Zabit Rauf Şirinovun sözlərinə görə təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq döyüş atışlı təlimə cəlb olunan artilleriya silahlarından keçirilən sınaq atışlarını şəxsi heyət uğurla yerinə yetirib.

Təlim rəhbəri zabit İbrahim İbrahimov artilleriya bölmələri haqqında dedi:

- Şəxsi heyətin hər biri həm dərslərdə, həm də praktiki məşğələlərdə öz bacarıqlarını yüksək səviyyədə nümayiş etdirir. Əvvəllər də keçirilən təlim atışları zamanı yüksək göstəricilər əldə ediblər.

Təlim rəhbəri onu da qeyd etdi ki, məhdudgörmə, yəni, gecə və dumanlı hava şəraitində tapşırıqlar icra olunarkən hədəfləri aşkar edib onların koordinatlarını dəqiq müəyyən etmək üçün müxtəlif qurğuların köməyindən istifadə olunur. Əsgərlər bu cihazlardan, bacarıqla istifadə edərək verilən tapşırıqların öhdəsindən uğurla gələ bilirlər.

(Ardı 8-ci səhifədə)



## ƏÜO-da komanda-qərargah təlimi keçirilib

Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) 2025-ci il üçün hazırlıq planına uyğun olaraq, komanda-qərargah təlimi keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimə cəlb olunan bölmələr "Həyəcan" siqnalı ilə təlim rayonlarına çıxarılıb, onların manevr imkanları, komandirlərin və qərargahların əməliyyat şəraitində bölmələri idarəetmə bacarıqları yoxlanılıb.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə bölmələr şərti düşmən hədəflərini atəşlə məhv ediblər.

Komanda-qərargah təlimində qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib.

## İkinci Dünya müharibəsində Azərbaycan övladlarının qəhrəmanlığı heç vaxt unudulmayacaq

XX əsrin hərbi münaqişələrindən biri də İkinci Dünya müharibəsidir. İştirakçı dövlətlərin sayına, müharibənin aparılması metodlarına və vasitələrinə görə bu müharibə bəşəriyyətin faciəsi də adlanır.

İkinci Dünya müharibəsində tarixi qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi “Sovet İttifaqı Qəhrəmanı” adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib.

Azərbaycan xalqı artıq beşinci ildir ki, 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbəni 44 günlük Vətən müharibəsi qazanılan Böyük Qələbənin verdiyi sevinc hissi ilə birgə ikiqat qürurla qeyd edir. Rəşadətli Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 il işğal altında qalmış torpaqlarımızı azad edərək tarixi ədaləti bərpa etdi. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə, eləcə də 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

**"Azərbaycan Ordusu"**

(Ardı 6-cı səhifədə)

## Marmaris şəhərində “KURTARAN-2025” sualtı axtarış və xilasetmə təlimləri keçirilib

Türkiyənin Marmaris şəhərində keçirilmiş "KURTARAN-2025" sualtı axtarış və xilasetmə təlimlərində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) bir qrup hərbi qulluqçusu müşahidəçi qismində iştirak edib.

Təlimin planına əsasən, qəzaya uğramış sualtı qayığın axtarış-xilasetmə gəmiləri tərəfindən xüsusi texnika və robotların köməyi ilə axtarışı, xilasedici dalğıclar vasitəsilə batan heyətə qida və tibbi ləvazimatın ötürülməsi, onların xüsusi avadanlıqlarla xilas edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlim zamanı helikopter və təyyarələrdən də istifadə olunmaqla axtarış-xilasetmə tədbirləri yerinə yetirilib. Belə ki, hava vasitələrindən dənizə paraşüt tullanışları icra edilib, qəzaya uğramış gəminin su üzərində köməyə ehtiyacı olan heyətinə lazımi ləvazimatların atılması və zərərçəkənlərin təxliyəsi üzrə fəaliyyətlər həyata keçirilib.



"KURTARAN-2025" sualtı axtarış və xilasetmə təlimlərində hərbi qulluqçular yüksək peşəkarlıq nümayiş etdiriblər.

## Azərbaycan-Türkiyə hərbi dənizçilərinin birgə praktiki məşğələləri keçirilib

Azərbaycan Respublikası Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərində Azərbaycan-Türkiyə hərbi dənizçilərinin birgə praktiki məşğələləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, məşğələlərə Azərbaycan HDQ Dəniz Təlim Mərkəzinin gəmi hazırlığı bölməsi və Türkiyə HDQ Təlim Mərkəzinin "Yıldızlar" təlim qrupu cəlb olunublar.

Keçirilən məşğələlərin başlıca məqsədi hər iki qardaş ölkə arasında hərbi dənizçilik sahəsində qarşılıqlı təcrübə mübadiləsinin aparılması və bu sahədə şəxsi heyətin döyüş hazırlığının daha da təkmilləşdirilməsidir.



# XTQ-nin yaradılmasının 26-cı ildönümü qeyd olunub





*Aprelin 30-da Müdafiə Nazirliyinin rəhbər heyəti Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasının 26-cı ildönümü münasibətilə "N" hərbi hissəsində keçirilən mərasimdə iştirak edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ulu Öndər Heydər Əliyevin hərbi hissənin ərazisindəki büstü və şəhidlərimizin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstələri düzülüb.

Sonra müdafiə naziri general-polkovnik Zakir Həsənov xüsusi təyinatlılarla görüşüb.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, qayğı və problemlərinin həlli istiqamətində atılan mühüm addımlardan danışıb.

44 günlük Vətən müharibəsində, eləcə də digər əməliyyatlarda xüsusi təyinatlıların göstərdiyi qəhrəmanlıq nümunələrini qeyd edən nazir onların fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xüsusi vurğulayıb.

Nazir xüsusi təyinatlıları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıb və müvafiq tövsiyələr verib.



Tədbirdə Azərbaycan Ordusunun digər hərbi qulluqçuları kimi XTQ mənsublarının da sarsılmaz əzmi və yüksək peşəkarlığının ölkəmizin qürur nişanəsi olduğu diqqətə çatdırılıb.

Xüsusi təyinatlılar adından çıxış edən XTQ mənsubu göstərilən diqqətə görə dövlət başçısına və nazirliyin rəhbərliyinə minnətdarlığını bildirib. Ali Baş Komandanın istənilən əmr və tapşırıqlarına daim hazır olduqlarını qeyd edib və xüsusi təyinatlıların hər zaman olduğu kimi bundan sonra da Vətənə şərəflə xidmət edəcəklərini və göstərilən etimadı doğruldacaqlarını əminliklə vurğulayıb.

Sonda hərbi xidmətdə fərqlənən bir qrup hərbi qulluqçu mükafatlandırılıb.

# Azərbaycanın müdafiə naziri Türkiyə MMU-nun rektorunu qəbul edib






Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-Türkiyə Milli Müdafiə universitetləri arasında keçiriləcək Yüksək Dialoq İclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan qardaş ölkənin Milli Müdafiə Universitetinin (MMU) rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Fəxri xiyabana gələrək Ümummilli Lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, xatirələrinə ehtiram nümayiş etdiriblər. Daha sonra nümayəndə heyəti Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını və Türk şəhidliyini ziyarət edərək gül dəstələri düzüblər.



Müdafiə Nazirliyində keçirilən görüşdə qonaqları salamlayan nazir onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan ilə Türkiyə arasında mövcud hərbi əməkdaşlığın bütün istiqamətlərdə olduğu kimi hərbi təhsil sahəsində də davam və inkişaf etdirildiyini ifadə edib.



Professor E.Afyoncu öz növbəsində göstərilən səmimi münasibətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkəmizdə səfərdə olmaqdan məmnunluğunu ifadə edib. Qonaq elm və təhsil sahələrində əlaqələrimizin hər iki qardaş ölkə ordularının müasir milli kadr potensialının qüdrətlənməsinə müsbət təsirini diqqətə çatdırıb.

Daha sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev qonaqlarla görüşərək keçiriləcək Yüksək Dialoq İclasının hər iki ölkənin hərbi təhsil ocaqlarına qarşılıqlı faydalarından danışıb, eləcə də ölkələrimiz arasındakı hərbi təhsil sahəsindəki əməkdaşlığın cari vəziyyəti və gələcəkdə daha da genişləndirilərək inkişaf etdirilməsi üzrə məsələləri müzakirə edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran bir sıra mövzulara dair geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Macarıstan hərbi əməkdaşlığı inkişaf etdirilir










Mayın 6-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Macarıstan Müdafiə Qüvvələrinin Baş Qərargah rəisi, professor, general Qabor Böröndinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqlar əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını ziyarət edib, əklil və gül dəstələri qoyaraq xatirələrinə dərin ehtiram nümayiş etdiriblər.

Zəfər parkına gələn Macarıstan nümayəndə heyəti Zəfər abidəsinin önünə əklil qoyub.



Nazirlikdə keçirilən görüşdə Azərbaycanın müdafiə naziri qonaqları salamlayıb və onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyətindən razılıq ifadə edən nazir Macarıstanın bütün səviyyələrdə ölkəmizə dəstəyini xüsusi qiymətləndirib.

Azərbaycanda ordu quruculuğu sahəsində görülən işlərdən danışan müdafiə naziri ölkələrimiz arasında strateji əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğulayıb.



General Q.Böröndi öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Qarşılıqlı etimad və dostluğa dayanan münasibətlərimizin inkişaf etdirilməsində bu cür səfərlərin və keçirilən görüşlərin müsbət təsirini qeyd edib.

Görüşdə hərbi əməkdaşlığın gələcək perspektivləri və maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Azərbaycan Ordusunun Baş Qərargahında təşkil edilən rəsmi qarşılanma mərasimində hər iki ölkənin Baş Qərargah rəisləri fəxri qarovul dəstəsinin önündən keçib. Azərbaycan və Macarıstan respublikalarının Dövlət himnləri səsləndirilib. General Q.Böröndi protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

General-polkovnik K.Vəliyev macarıstanlı həmkarı ilə görüşüb.

Görüşdə Azərbaycan və Macarıstan arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və gələcəkdə daha da genişləndirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı təcrübə mübadiləsinin, o cümlədən hərbi qulluqçuların peşəkarlığının artırılması məqsədilə birgə təlimlərin keçirilməsinin vacibliyi qeyd olunub.

# Azərbaycan-Türkiyə Milli Müdafiə Universitetləri arasında Yüksək Dialoq tədbiri keçirilib

Mayın 6-da Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Azərbaycan-Türkiyə Milli Müdafiə Universitetləri (MMU) arasında "Təlim-Tədris Prosesinin Təkmilləşdirilməsi üzrə Yüksək Dialoq" tədbiri keçirilib. Tədbirdə hər iki ölkənin MMU rektorları, baş idarə, idarə rəisləri, təhsil müəssisələrinin rəhbərləri, zabitlər və professor-müəllim heyəti iştirak ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin institutun ərazisində ucaldılmış abidəsi və şəhidlərin memorial kompleksi ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Heydər Əliyev adına Hərbi İnstitutun klubunda davam edən tədbirin rəsmi hissəsində əvvəlcə Ulu Öndər Heydər



Əliyevin və hər iki ölkənin suverenliyi və azadlığı uğrunda canından keçən şəhidlərin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni və Türkiyə Respublikasının İstiqlal Marşı səsləndirilib.

Tədbiri giriş nitqi ilə açan Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov tədbir iştirakçılarını salamlayıb, Azərbaycan-Türkiyə MMU-ları arasında hərbi təhsil sahəsində Yüksək Dialoq tədbirinin keçirilməsini əlamətdar hadisə adlandırıb və bu gün qardaş Türkiyə heyətinin bu tədbirdə iştirakını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iki strateji tərəfdaş dövlətin inkişafı istiqamətində müəyyənləşdirdiyi siyasətin, strateji müttəfiqlik münasibətlərinin hərbi təhsil sahəsində təzahürü olduğunu xüsusi vurğulayıb. Hərbi qulluqçuların, xüsusilə də zabitlərin hazırlığının aktual məsələlərini müzakirə etmək üçün təhsil müəssisələri və qoşun növlərini bir araya gətirən bu yanaşmanın Türkiyə təcrübəsi əsasında Azərbaycan Ordusunda ilk dəfə tətbiq olunduğunu qeyd edən general-mayor G.Əbdülov, son illərdə keçirilən görüşlərin, təşkil olunan tədbirlərin hər iki qardaş ölkə üçün hərbi təhsil sahəsində öz səmərəliliyi ilə seçildiyini qeyd edib.

Daha sonra çıxış edən Türkiyə Milli Müdafiə Universitetinin rektoru professor Erhan Afyoncu Azərbaycan və Türkiyənin uzun illərdir davam etdirdiyi və bu gün dövrünün ən pik çağlarını yaşayan əməkdaşlığın müəyyən hissəsi olan hərbi təhsil sahəsində əldə olunan innovativ yeniliklərin tətbiqini iki ölkə arasındakı qardaşlıq bağlarının, sarsılmaz əlaqələrin göstəricisi olduğunu qeyd edib.

Sonda tədris prosesinin təkmilləşdirilməsi üzrə işçi qruplar tərəfindən plana uyğun fəaliyyətlər icra olunub.







# Heydər Əliyev adına Hərbi İnstitutda elmi-praktik konfrans keçirilib

*Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 102 illiyinə həsr olunmuş "Azərbaycan Respublikasının inkişaf strategiyası, potensial imkanlar və yeni çağırışlar" respublika elmi-praktik konfransı keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Ümummilli Liderin Hərbi İnstitutun ərazisindəki abidəsi önünə gül dəstələri düzülərək xatirəsinə ehtiram nümayiş etdirilib.

Tədbir Ulu Öndər Heydər Əliyevin, eləcə də ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin ifa olunması ilə başlayıb.

Sonra iştirakçılara "Heydər Əliyev və Azərbaycan Respublikasının inkişaf strategiyası"na həsr edilmiş videofilm təqdim olunub.

Heydər Əliyev adına Hərbi İnstitutun rektoru polkovnik Ümüdvar Quliyev açılış nitqi söyləyərək konfrans iştirakçılarını salamlayıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov, Elm və Təhsil Nazirliyinin tabeliyində akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun baş direktoru, AMEA-nın həqiqi üzvü, kimya elmləri doktoru, professor Vaqif Abbasov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi general-mayor Elşad Nəsirov və Heydər Əliyev adına Hərbi İnstitutun Elmi-tədqiqat şöbəsinin professoru, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Ramid Hüseynov çıxış edərək Heydər Əliyev və Azərbaycan Respublikasının inkişaf strategiyası, mövcud imkanlar və qarşıda duran vəzifələr, çağırışlar barəsində fikirlərini konfrans iştirakçılarına bildiriblər.

Daha sonra konfransın plenar iclası keçirilib. Konfransa 35 təşkilat tərəfindən 100-dən çox məqalə təqdim edilib.

Konfransın əsas məqsədi Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan müasir Azərbaycan Respublikasının inkişaf strategiyasının müxtəlif istiqamətlərinin, inkişaf dinamikasının, o cümlədən, ölkə başçısı, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun qarşısında qoyduğu tələblərə müvafiq olaraq ordu quruculuğunda yeni yanaşmaların və perspektivlərin elmi-nəzəri əsaslarının öyrənilməsindən ibarətdir.

Konfrans plenar iclasdan sonra 5 bölmə üzrə işini davam etdirib, iştirakçıların maraqlı elmi məruzələri dinlənilib və mövzuya dair ətraflı müzakirələr aparılıb.






## Hərbi təhsil sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı müzakirə edilib



Azərbaycan Milli Müdafiə Universitetinin (MMU) rektoru general-mayor Gündüz Əbdülov Azərbaycan-Türkiyə MMU-ları arasında keçirilməsi planlaşdırılan Yüksək Dialoq İclasında iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan qardaş ölkənin MMU rektoru professor Erhan Afyoncunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi xəbər verir ki, qonaqları salamlayan general-mayor G.Əbdülov universitetin təhsil sistemi və tədris prosesi, rəqəmsal sistem vasitəsi ilə MMU-nun tabeliyindəki xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul qaydaları və statistikası, eləcə də perspektivdə nəzərdə tutulan planlar haqqında məlumat verib. Dövlət başçımızın hərbi təhsil sisteminin inkişafına göstərdiyi qayğıdan, Azərbaycan Ordusunda peşəkar kadrların hazırlanması istiqamətində həyata keçirilən tədbirlərdən söhbət açıb.

Bu cür görüşlərin hərbi təhsil sahəsində əlaqələrimizə müsbət töhfə verdiyini vurğulayan professor E.Afyoncu qarşılıqlı səfərlərin əhəmiyyətini diqqətə çatdırıb.

Universitetlərin rəhbər heyətləri arasında keçirilən görüşdə hər iki qardaş ölkənin hərbi təhsil sahəsində əməkdaşlığının daha da genişləndirilməsi məqsədilə görülən işlər, perspektiv planlar, eləcə də maraq kəsb edən digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Türkiyəli qonaq görüşün sonunda universitetin xatirə kitabına ürək sözlərini yazıb.

## "Dəniz təməl komando kursu"nun növbəti buraxılış mərasimi keçirilib



Hərbi Dəniz Qüvvələrinin (HDQ) "N" hərbi hissəsində "Dəniz təməl komando kursu"nun növbəti buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, tədbirdə HDQ-nin rəhbər heyəti, hərbi qulluqçular iştirak ediblər. Əvvəlcə hərbi hissənin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə tər güllər qoyulub.

Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni ifa edilib.

HDQ-nin komandanı vəzifəsini müvəqqəti icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov çıxış edərək hərbi qulluqçuları salamlayıb, kursu müvəffəqiyyətlə bitirənlərə Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırıb, onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

1-ci dərəcəli kapitan Ş.Məmmədov Ümummilli Lider Heydər Əliyevin nizami ordu kimi formalaşdırdığı Azərbaycan Ordusunda Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu islahatlardan, HDQ-nin fəaliyyətindən, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdə HDQ-nin şəxsi heyətinin də rəşadətlə iştirak etməsindən danışıb.

Sonra kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub və məzunlara sertifikatlar təqdim edilib. Kursda fərqlənən hərbi qulluqçular və təlimatçılar fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb.



# Azərbaycan nəinki regionda, dünyada da sülh tərəfdarıdır

Dünyada öz ədalətli mövqeyi, sülhə dəstəyi, humanizmə dəyəri ilə seçilən Azərbaycan hər zaman dövlətlər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsinin, beynəlxalq hüquq normalarının qorunmasının tərəfdarı olan ölkə olub. Tərəfdar olması təkcə sözdə deyil, əməldə də deyildiyi kimi olub. İstər ölkə daxilində, istərsə də ölkə hüdudlarından kənarda, beynəlxalq tribunalarda, aparıcı dövlətlərin və təşkilatların nümayəndələri ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünya ölkələrinin beynəlxalq sənədlərlə tanınan ərazi bütövlüyünü tanımağın, insan hüquqlarını müdafiə etməyin, terrorizmə qarşı mübarizə aparmağın vacibliyini dəfələrlə vurğulayaraq, ölkəmizin və xalqımızın ədalətli mövqeyini ortaya qoyub. Azərbaycan müharibəni və bir ölkənin digərinə qarşı təcavüzünü hər zaman qətiyyətlə pisləyib, beynəlxalq təşkilatlara bu cür vəziyyətlərdən qaçmaq əvəzinə, həll yolunu tapmaq lazım olduğunun vacibliyini xüsusi qeyd edib. Uzun illər separatizmin əziyyətini çəkmiş xalq olaraq, ərazi bütövlüyümüzün pozulması, soydaşlarımızın öz doğma evlərindən didərgin düşməsi kimi acı taleləri yaşamışıq. Və bu məsələnin ağrıacısını iliklərimizdə hiss edərək, hər zaman haqlının yanında, haqsızın isə qarşısında olmağın vacibliyini bilmişik. Azərbaycan rəhbərliyi diplomatiya müstəvisində çıxış edərkən, dünya ölkələrinin, habelə, xalq və millətlərin bir-birinin ərazi bütövlüyünə hörmətlə yanaşmasının vacibliyini qeyd edib və edir. Bu gün yürüdülən uğurlu beynəlxalq siyasət sayəsində dövlət başçımızın humanizm dəyərləri və insan amilinə nə qədər önəm verdiyini anlamaq mümkündür. Xalqların və dövlətlərin arasında qurulan münasibətlərin hər zaman firavanlıq, möhkəm dostluq və qarşılıqlı əməkdaşlıq çərçivəsində aparılmasında maraqlı olan ölkə Azərbaycan bu gün terrorizmi lənətləyir, sülh və inkişafı dəstəkləyir. Bu gün Azərbaycanın beynəlxalq sülhə verdiyi töhfələr çoxşaxəlidir. Azərbaycanın sülhə töhfə verməsi, əsasən onun diplomatik təşəbbüsləri, BMT və digər beynəlxalq təşkilatlardakı fəaliyyəti, habelə sülhün və təhlükəsizliyin qorunmasına yönəlmiş humanitar və sülhməramlı əməliyyatlarda iştirakını əhatə edir. Sülhə və tərəqqiyə olan yanaşmanın fərdi deyil, həm də dünyəvi yanaşma olduğunu nəzərə alsaq, görərik ki, Azərbaycan da dünya ölkələri içində münaqişələrin və müharibələrin azaldılması, o cümlədən humanitar məsələlərin həlli istiqamətində mühüm pay sahibi olan dövlətlərdəndir. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra BMT və NATO kimi nəhəng təşkilatların müxtəlif sülhə dəstək yönümlü fəaliyyətlərində iştirak edib və sülhün qorunması, münaqişələrin həlli və müharibədən zərər çəkmiş insanlara yardım məqsədi daşıyan önəmli missiyaların iştirakçı ölkəsi olub.

Azərbaycan Ordusunun şəxsi heyətinin Kosovo, İraq və Əfqanıstanda iştirak etdiyi sülhməramlı missiyalar haqqında çox yazılıb. Bu məqalədə ordumuzun hərbi qulluqçularının Birləşmiş Millətlər Təşkilatı mandatı ilə Cənubi Sudandakı sülhyaratma missiyasından danışacağıq. Əvvəlcə məlumat üçün qeyd edək ki, BMT-nin Cənubi Sudan Missiyası (United Nations Mission in the Republic of South Sudan - UNMİSS) 2011-ci ildə Cənubi Sudanın müstəqillik əldə etməsindən sonra yaradılmışdır. Cənubi Sudan münaqişəsi etnik, siyasi və iqtisadi səbəblərə əsaslanan mürəkkəb və bu gedişlə uzunmüddətli münaqişələrdən biridir. Bu münaqişənin bir neçə səbəbləri var - etnik qarşıdurmalar, siyasi sabitliyin olmaması, resursların mənimsənilməsi, xarici və regional təsirlər. Artıq bir neçə ildir davam edən münaqişələr nəticəsində yüz minlərlə insan ölmüş, milyonlarla insan qaçqın düşmüş, ciddi aclıq, humanitar böhran və ciddi iqtisadi tənəzzül yaranmışdır.



BMT-nin bu ölkədəki missiyasının da əsas məqsədləri ölkədə sülhün əldə olunması, mülki əhalinin qorunması, zərərçəkənlərə humanitar yardımın göstərilməsidir. Sadalananların davamı olaraq BMT mandatı mülki əhalinin müdafiəsi, humanitar yardımların çatdırılması üçün şəraitin yaradılması, sülhün dəstəklənməsi, pozuntuların monitorinqi və araşdırılması məsələlərini də əhatə edir.







CERTIFICATE OF COMMENDATION

AWARDED TO

Maj Mehman Garagozov

In recognition of and deep gratitude for his extraordinary bravery & courage, in ensuring successful extraction of the Long Duration Patrol that he led from a conflict zone without caring for personal safety, thereby exhibiting exemplary commitment as a member of peacekeeping force in United Nations Mission in South Sudan (UNMISS)

25 March 2025
Juba, South Sudan

UNMISS
FORCE COMMANDER

Mohan SUBRAMANIAN
Lieutenant General
Force Commander

Azərbaycan Respublikası Milli Məclisinin 2018-ci ildəki müvafiq qərarı ilə Azərbaycan Ordusunun hərbi qulluqçularının BMT Sülhməramlı Missiyasının Komandanlığı altında Cənubi Sudan Respublikasında qərargah zabiti və hərbi müşahidəçi rolunda iştirakına icazə verilmişdir. UNMİSS-də iştirak edən Azərbaycan Ordusunun zabiti Mehman Qaragözovla tanış olub onun fikirlərini qələmə aldıq.

"Mən mayor Qaragözov Mehman Həmdiyə oğlu Qəbələ rayonunun Bum kəndində anadan olmuş, ilk təhsilimi Qəbələ rayon 4 saylı tam orta məktəbində almışam. 2002-2005-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi birinciliklə bitirmiş, 2005-2010-cu illərdə ali hərbi təhsilimi İtaliya Respublikası Hərbi Akademiyasında almışam. Xidmət müddətində ölkəmi müxtəlif beynəlxalq təlim və tədbirlərdə layiqincə təmsil etmiş, həmçinin NATO-nun ƏİK proqramı çərçivəsində bölməmizlə birlikdə müxtəlif qiymətləndirmə təlimlərini uğurla keçmişəm. 2018-ci ildə Əfqanıstanda "Qətiyyətli Dəstək" missiyasında iştirak etmişəm. 2020-ci il sentyabrın 27-də başlayan İkinci Qarabağ müharibəsinin iştirakçısıyam, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşam. 2024-cü ilin sentyabr ayından BMT mandatı altında Cənubi Sudan Respublikasında keçirilən missiyada hərbi müşahidəçi olaraq iştirak edirəm. Bu missiya 2011-ci ildən fəaliyyət göstərir və tərkibi 70-dən çox üzv ölkələr tərəfindən təmin edilib, zabit, əsgər, polis və mülki vətəndaşlardan ibarət olur. Burada yaşayan əhalinin sağlamlığının qorunması, onların hüquq normalarına nəzarət, humanitar köməklərin göstərilməsi, ehtimal olunan qarşıdurmaların bloklanması və digər fəaliyyətlər missiya iştirakçıları tərəfindən yerinə yetirilir. Hazırkı vəziyyətdən əziyyət çəkən insanlara, ələlxüsus, azyaşlılara yardım etmək, onların zəruri tibbi ləvazimatlarla təmin edilməsi, münaqişədən zərər görmüş insanların həyatının yaxşılaşdırılması üçün BMT nümayəndələri tərəfindən monitorinqlər keçirilir. Həmçinin münaqişədən zərərçəkən və bu səbəbdən evlərini tərk etmiş insanları sığınacaq, qida və digər zəruri təminat vasitələri ilə təmin etmək də missiya iştirakçılarının üzərinə düşən vəzifələrdən biridir. Missiyada üzərimə düşən tapşırıqları dəqiqliklə yerinə yetirdiyim üçün BMT-nin UNMİSS missiyasının rəhbərliyi tərəfindən sertifikat, xidmət medalı ilə təltif olundum. Sevinirəm ki, ölkəmizi bu missiyada uğurla təmsil etməyi bacardım. Müharibə və münaqişə görmüş biri olaraq demək istərdim ki, ən böyük arzum uşaqların olduğu dünyada daimi sülh və sabitliyin olmasıdır. Uşaqların müharibədən əziyyət çəkməsi çox acınacaqlıdır. Dinindən, dilindən, irqindən asılı olmayaraq, uşaqların müharibədən və münaqişələrdən əziyyət çəkməsi qəbuledilməzdir. Oradakı sığınacaqlarda valideynlərini itirmiş uşaqları gördükdə, tarixi torpaqlarımızda, ələlxüsus, Xocalımızda uşaqlarımızın yaşadığı aqibəti xatırlayırdım. Dünyada sülhün olması üçün hər birimiz səfərbər olmalı, bayrağımızın ətrafında sıx birləşməli, ölkəmizi layiqincə təmsil etməli və dünyaya tanıtmalıyıq. Ölkəmizin beynəlxalq sülhə verdiyi töhfələr həm beynəlxalq təşkilatlarda, həm də bilavasitə sahələrdə həyata keçirilən fəaliyyətlər vasitəsilə böyük əhəmiyyət daşıyır. Azərbaycanın göstərdiyi diplomatik təşəbbüsləri, humanitar yardımları və beynəlxalq sülhə yönəlmiş fəaliyyətləri onu regionda və dünyada daha sabit və sülhsevər bir dövlətə çevirir. Və bir daha təsdiqləyir ki, Azərbaycan nəinki regionda, dünyada da sülh tərəfdarı olan ölkədir", - deyən mayor Qaragözov fikrini tamamladı. Zabitimizə gələcək xidmətində də bol uğur arzu edib, onunla söhbətimizi başa çatdırdıq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Dəniz piyadalarının döyüş atışlı taktiki təlimi keçirilib







Cari ilin hazırlıq planına əsasən, Hərbi Dəniz Qüvvələrinin (HDQ) Dəniz piyada bölmələri ilə döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin ssenarisinə uyğun olaraq, həyəcan siqnalı ilə qaldırılan bölmələr daimi dislokasiya məntəqəsindən cəmləşmə rayonlarına çıxarılıb.

Təlimin növbəti mərhələsində dəniz piyadaları hərəkət planına uyğun gizli, sürətli və maskalanaraq hücum xəttinə irəliləmə, şərti düşmənin canlı qüvvəsinin və texnikasının məhv edilməsi, eləcə də düşmən mövqelərinin tutulması və təminat yollarının nəzarət altına alınması üzrə tapşırıqları icra ediblər.

Təlim zamanı, həmçinin bölmənin yerləşdiyi ərazidə komendant xidmətinin və hərəkətli patrul sisteminin təşkili, gecə məşğələlərinin keçirilməsi üzrə fəaliyyətlər də yerinə yetirilib.

Dəniz piyadalarının döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması, şəxsi heyətin nəzəri və praktiki vərdişlərinin daha da təkmilləşdirilməsi məqsədilə keçirilən taktiki təlimdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə icra olunub.

*Böyük Vətən müharibəsi - 80*

# İkinci Dünya müharibəsində Azərbaycan övladlarının qəhrəmanlığı heç vaxt unudulmayacaq



(Əvvəli 1-ci səhifədə)

## Mehdi Hənifə oğlu Hüseynzadə

Azərbaycanın və ümumilikdə dünyanın İkinci Dünya müharibəsində tanıdığı ən qəhrəman və fədakar şəxsiyyətlərdən biridir. O, 22 dekabr 1918-ci ildə Bakı yaxınlığındakı Novxanı kəndində anadan olmuşdu. Gəncliyində incəsənətə maraq göstərmiş, Azərbaycan Dövlət Rəssamlıq Məktəbini bitirmişdi. Təhsilini daha sonra Leninqradda və Bakıda davam etdirən Mehdi 1941-ci ildə müharibənin başlanması ilə Sovet ordusuna qoşulmuşdu.

Müharibənin ilk illərində döyüşlərdə iştirak edən Mehdi Hüseynzadə ağır yaralanaraq əsir düşmüş, Almaniyada tərcüməçi kimi işlədikdən sonra əsirlikdən qaçmağı bacarmışdı. 1943-cü ilin sonlarında Yuqoslaviya və İtaliyada fəaliyyət göstərən partizan hərəkatına qoşulmuş və burada "Mixaylo" adı ilə tanınmağa başlamışdı. Xüsusi təxribat-kəşfiyyat dəstəsinin rəhbəri kimi çoxsaylı uğurlu əməliyyatlara imza atmış, düşmənin hərbi bazalarını, kommunikasiya xətlərini və texnikasını məhv edərək onların ciddi itkilər verməsinə səbəb olmuşdu.

Mehdi Hüseynzadənin fəaliyyətində ən çox yadda qalan məqamlardan biri alman zabitlərinin toplaşdığı kazinonun partladılması, dəmir yollarının minalanması və mühüm sənədlərin ələ keçirilməsi ilə bağlıdır. Mehdinin cəsarəti və zəka dolu planları düşmən tərəfindən ciddi təhlükə kimi dəyərləndirilmiş və onun başına mükafat qoyulmuşdu.

Təəssüf ki, 16 noyabr 1944-cü ildə Sloveniya ərazisində keçirdiyi son əməliyyatda mühasirəyə düşmüş, uzun və qeyri-bərabər döyüşdən sonra düşmənlə birlikdə özünü də partladaraq qəhrəmancasına həlak olmuşdu. Ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüşdü.

Mehdi Hüseynzadənin igidliyi Azərbaycan xalqı üçün qürur mənbəyi olmuşdur. Onun həyatı "Uzaq sahillərdə" əsərində və eyniadlı filmdə əks olunmuşdur. Bu gün də onun xatirəsi abidələrlə, küçə və məktəblərin adlarında yaşadılır.

## Məmiş Şahbaz oğlu Abdullayev



İkinci Dünya müharibəsində göstərdiyi igidliyi ilə tanınan azərbaycanlı Sovet hərbi qulluqçusudur. Kürdəmir rayonunun Muradxanlı kəndində anadan olub. Məmiş məktəb dönəmində də öz bacarığı və savadı ilə seçilən şagirdlərdən biri olmuşdur. Məktəbi bitirdikdən sonra kənd sovxozunda hesabdar işləmiş, öz fəallığı və zəhmətkeşliyi ilə burada da kolxozçuların rəğbətini qazanmışdır.

1942-ci ildə Məmiş Abdullayev Böyük Vətən müharibəsinə yollanıb. Kursk ətrafındakı tarixi döyüşlər zamanı öz bacarığı və şücaəti ilə fərqlənən Məmiş usta atıcı və hərbi intizamlı əsgər olaraq tanınırdı. Məmiş Abdullayev Kurskla yanaşı, Belarus torpaqlarının da faşist qüvvələrindən təmizlənməsində iştirak etmişdi. Belarus cəbhəsindən sonra Polşanın da işğaldan azad edilməsində iştirak edən əsgər Abdullayev peşəkar döyüşçü və pulemyotçu olaraq Böyük Vətən müharibəsi zamanı ad qazanmışdı. Xüsusən Kursk və Polşa döyüşlərində düşmən qüvvələrinə ciddi zərbə endirməyi bacarmış qəhrəman əsgər Abdullayev alayın hücumunun təmin olunmasında da iştirakçı olmuşdu.

Məmiş Abdullayev 1945-ci ilin yanvarında Polşanın Ksenjno kəndi yaxınlığında gedən döyüşlərdə həlak olmuşdu.

Məmiş Abdullayev Böyük Vətən müharibəsi zamanı Kursk ətrafında, Belarusda və Polşa uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyə görə iki dəfə "Qırmızı Ulduz" ordeni və "İgidliyə görə" medalı ilə təltif olunub. 1945-ci il 24 mart tarixli fərmanı ilə o, "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb.

Onun qəhrəmanlığı Azərbaycan xalqının İkinci Dünya müharibəsində göstərdiyi igidliyin parlaq nümunələrindən biridir. Bu gün Azərbaycan xalqının qəhrəman oğlu Abdullayev Məmiş Şahbaz oğlunun adını əbədiləşdirən məktəb, küçə və xatirə lövhələri günümüzün gənclərinin vətənpərvərlik ruhunu daha da artırır. Gənc nəsil də öz növbəsində qəhrəmanını öz ürəyində yaşadır və daim yüksək ehtiramla anır.

## Ziya Musa oğlu Bünyadov

Azərbaycan tarixində elə şəxsiyyətlər var ki, onların həyatı bütöv bir xalqın mübarizə salnaməsinə çevrilib. Hərb meydanında silaha sarılıb rəşadətlə vuruşan, elm cəbhəsində qələmə sarılaraq tarixi kitablara həkk edilən qəhrəmanlardan biri də Sovet İttifaqı Qəhrəmanı akademik Ziya Bünyadovdur. O, təkcə düşmənə qarşı savaşda igidlik göstərməklə kifayətlənməyib, həm də tarixi həqiqətlərin müdafiəçisi kimi öz xalqının gerçək səsini dünyaya çatdırmağı bacarıb.

Adı bu torpağın igidlik simvoluna çevrilən Ziya Bünyadovun həyat yolu cəbhədən başlayan, yalnız döyüş meydanlarında bitməyən bir ömür yoludur. O, müharibə alovunun içində bərkiyərək Vətənin sərhədlərini silahla, sülh dövründə isə xalqın mənəvi sərhədlərini saxta tarixlərə, düşmən təbliğatına qarşı qoruyub.

Bu gün şərəfli döyüş yolu, ömür salnaməsi qəhrəmanlıqla zəngin olan Ziya Bünyadovun təkcə elmi nailiyyətlərindən və hərbi şücaətindən danışılmır. Onun Vətəninə sədaqəti, şərəfli həyat yolu, döyüşdə göstərdiyi rəşadət, elmdə qazandığı ucalıq və xalqına etdiyi misilsiz xidmətlər geniş şəkildə işıqlandırılır.

Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Musa oğlu Bünyadov 1923-cü ildə Azərbaycanın Astara şəhərində hərbi tərcüməçi ailəsində anadan olub. Hərbi xidmətə 1939-cu ildə çağırılan ailənin ən böyük oğlu Ziya 1941-ci ildə hərb məktəbini əlaçı diplomu ilə bitirərək "leytenant" rütbəsi qazanıb. 1942-ci ilin avqustunda 5-ci Zərbə ordusunun tərkibində (1-ci Belarusiya cəbhəsi) xüsusi təyinatlı bölüyə komandir təyin olunub. 1945-ci il yanvarın 14-də kapitan Bünyadovun rəhbərlik etdiyi bölük Pilitsa çayını keçərək körpünü müdafiə etmiş və sovet ordusunun hücumunu təmin edib. Bu döyüşdə 100 nəfərdən ibarət bölüyün 45 əsgəri həlak olsa da, 5 minaatan və 3 top düşməndən qənimət kimi ələ keçirilmişdi. Göstərdiyi şücaətə görə, 1945-ci il fevralın 27-də Ziya Bünyadova "Sovet İttifaqı Qəhrəmanı" adı verilib.



1946-cı ildən ordudan tərxis olunan polkovnik-leytenant Ziya Bünyadov 1950-ci ildə Moskva Şərqşünaslıq İnstitutunu bitirdikdən sonra Azərbaycan Elmlər Akademiyasında uzun illər fəaliyyət göstərib, 1969-cu ildə həqiqi üzv seçilib. O, Akademiyanın vitse-prezidenti, həmçinin Şərqşünaslıq İnstitutunun direktoru vəzifələrində çalışıb.

Akademik Ziya Bünyadov erməni tarixçilərinin saxtakarlıqlarını elmi faktlarla ifşa edən ilk alimlərdən biri olub. O, Ermənistanın hazırkı ərazisinin tarixən azərbaycanlılara məxsus olduğunu əsaslı sübutlarla ortaya qoymuş, erməni ideoloqlarının səssizliyini ifşa etmişdi. Tarix elmində totalitarizm buxovunun qırılmasında, Azərbaycan Demokratik Respublikasının (1918-1920) tarixinin tədqiqində mühüm rol oynayıb.

1960-1970-ci illərdə Ermənistanın separatçı qüvvələri tərəfindən Qafqaz tarixinə dair saxtalaşdırılmış məlumatlara Ziya Bünyadov ilk dəfə əsaslı cavab vermiş, erməni müəlliflərinin iddialarını elmi mənbələrlə təkzib etmişdi. Ümummilli Liderimiz Heydər Əliyev onu belə qiymətləndirmişdi: "Ermənistanın tarixi saxtalaşdıran yazılarına elmi əsaslı cavab verən, onların qarşısında daim mətin dayanan Ziya Bünyadov idi".

Həyatının son illərində Ziya Bünyadov müqəddəs Qurani-Kərimi Azərbaycan dilinə tərcümə edib, "Dinlər, təriqətlər, məzhəblər" adlı kitabını tamamlayıb. Onun dini və tarixi əsərləri Azərbaycan xalqının mənəviyyatına dəyərli töhfə olub.

Akademik Ziya Bünyadov 1997-ci il fevralın 21-də Bakı şəhərində dünyasını dəyişib.

## Adil Hüseyn oğlu Quliyev



Böyük Vətən müharibəsində Azərbaycan oğulları ön cəbhədə şücaət və fədakarlıq göstəriblər. Bu qəhrəmanlardan biri də Sovet İttifaqı Qəhrəmanı polkovnik Adil Hüseyn oğlu Quliyev idi.

Adil Quliyev 22 noyabr 1922-ci ildə Bakıda anadan olub. Böyük Vətən müharibəsinin başladığı il - 1941-ci ildə hərbi xidmətə çağırılıb və 1942-ci ildə Stalinqrad Hərbi Təyyarəçilik Məktəbini bitirib. Məzun olduqdan sonra cəbhəyə yollanan Adil Quliyev 1-ci Baltikyanı cəbhənin 3-cü aviasiya ordusunun tərkibində, 1-ci qvardiya qırıcı aviasiya korpusu, 4-cü qvardiya qırıcı aviasiya diviziyası, 65-ci qvardiya qırıcı aviasiya polkunda eskadrilya komandirinin müavini kimi xidmət edib. O, müharibə dövründə düşmənin 18 təyyarəsini məhv edərək əsl aviasiya peşəkarı kimi tanınıb. Məhz bu səbəbdən, Adil Quliyev döyüşlərin gedişatında-1945-ci il fevralın 23-də göstərdiyi igidliyə görə "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb. Həmin il martın 14-də Staraya Russa şəhəri yaxınlığında vurulan təyyarəsini cəbhə xəttinə qədər çatdıran Adil Quliyev paraşütlə tullanaraq öz tərəflərinə keçə bilib.

Müharibədən sonra Adil Quliyev hərbi xidmətini davam etdirib, 1966-cı ildə "polkovnik" rütbəsində təqaüdə çıxıb. Uzun müddət Bakı Aeroportunun rəisi işləyib, SSRİ Ali Sovetinin deputatı olub.

1992-ci ildə vəfat edən Adil Quliyev Bakıda Fəxri xiyabanda dəfn edilib.

Adil Quliyevin döyüş yolu və hərbi xidmətləri Azərbaycan hərb tarixində əbədi iz qoyub. Onun döyüş yolu ilə gedən igid pilotlarımız Azərbaycanın torpaq bütövlüyü naminə aparılan döyüşlərdə rəşadət və qəhrəmanlıq nümayiş etdirdilər.

## Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev



1915-ci il martın 22-də Azərbaycanın qədim və mədəniyyətlə zəngin bölgələrindən biri olan Ordubad şəhərində dünyaya gəlmişdi. Gənc yaşlarından dövlətə və Vətənə xidmət ruhunda yetişən Rəfiyev 1935-ci ildə Sovet Ordusuna çağırılmış və iki il sonra ali hərbi təhsil almağa başlamışdı.

1941-ci ildə faşist Almaniyasının SSRİ-yə hücumundan cəmi 4 gün sonra Nəcəfqulu Rəfiyev döyüş meydanına atılmış, sürücü-mexanik, tank komandiri və tank taqımının komandiri kimi ön cəbhələrdə vuruşmuşdu. O, Cənub-Qərb, Şimali Qafqaz və 1-ci Belarusiya cəbhələrində göstərdiyi igidliklə fərqlənmişdi. Xüsusilə 1944-cü ilin yayında Minsk yaxınlığında və Baronoviçi şəhərinin azad olunmasında göstərdiyi şücaət onun adını qəhrəmanlar sırasına yazmışdı.

Bu xidmətlərinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 9 sentyabr tarixli fərmanı ilə Nəcəfqulu Rəfiyev "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülmüşdü. Müharibədən sonra o, hərbi xidmətdə qalaraq müxtəlif vəzifələrdə çalışmış, 1955-1959-cu illərdə isə Lənkəran Hərbi Komissarlığında şöbə rəisi və Culfa rayonunun hərbi komissarı olmuşdu.

1959-cu ildə ordudan ehtiyata buraxıldıqdan sonra Azərbaycan SSR-in avtomobil nəqliyyatı sahəsində əmək fəaliyyətini davam etdirmişdi. Uzun və şərəfli bir ömür sürən Nəcəfqulu Rəfiyev 1970-ci il dekabrın 24-də vəfat etmişdi.

Onun həyat yolu Azərbaycan tarixində igidlik və vətənpərvərlik nümunəsi kimi yadda qalmışdır. Sovet İttifaqı Qəhrəmanı kimi qazandığı şöhrət gələcək nəsillər üçün Vətənə sədaqətin və cəsarətin örnəyidir.

# Döyüşən ordunun əsas yanacaq mənbəyi Bakı nefti idi

Faşizm üzərində Qələbənin qazanılmasından, 9 May 1945-ci il tarixindən 80 il ötsə də, o dəhşətli müharibənin ağrı-acılarını xalqımız heç zaman unutmur, həlak olan soydaşlarımızın əziz xatirəsini ehtiramla yad edir. İnsanlığa qənim kəsilən Hitler faşizmi sonda dünyanın sülhsevər xalqlarının birgə mübarizəsi nəticəsində məhv oldu. Dünya ağalığı niyyətinə düşən Adolf Hitlerin yaratdığı faşist Almaniyası təslim olaraq süqut etdi.

1939-cu ilin sentyabrında faşist Almaniyasının Polşaya hücumu ilə II Dünya müharibəsi başlandı və çox qısa bir zamanda Avropanın, Asiyanın, Afrikanın, Amerikanın bir çox ölkələrini özünə cəlb etdi. Hind və Sakit okeanı sahillərinə, Atlantik okean və Şimal Buzlu okean adalarına, İndoneziya və Avstraliya sahillərinədək geniş əraziyə yayıldı.

Avropa xalqlarını əsarət altına alan Hitler Almaniyası işğal etdiyi ölkələrin iqtisadiyyatını hərbi rels üzərinə keçirərək "İldırım sürətli", "Barbarossa" planını həyata keçirmək məqsədilə, 22 iyun 1941-ci il gecə saat 4 radələrində heç bir xəbərdarlıq etmədən Sovetlər ölkəsinə xaincəsinə hücum etdi və bu müharibə Böyük Vətən müharibəsi kimi tarixləşdi.

Böyük Vətən müharibəsi ümumilikdə II Dünya müharibəsinin siyasi və sosial tərkibinin dəyişməsinə, onun ən vacib hadisələrinin gedişinə və nəticəsinə həlledici təsir göstərirdi. Almaniya Sovetlər ölkəsinə qarşı aşağıdakı qoşun qruplaşmalarını təşkil etmişdi: Finlandiya ərazisində "Norveç" alman ordusu və iki fin ordusu, Şərqi Prussiyada "Şimal" ordular qrupu yerləşirdi. "Mərkəz" ordular qrupu Polşanın Şimal-Şərqində, "Cənub" ordular qrupu isə Polşanın Cənub-Şərqində və Rumıniyanın Şimal-Şərqində yerləşirdi. Sovet İttifaqına qarşı Almaniya 190 diviziya, 5,5 milyon nəfər canlı qüvvə, 4300 tank, 4980 təyyarə, 47200 top və minaatan toplamışdı. Sıx, yığcam qruplaşmalardan ibarət bu qüvvələr artıq demək olar ki, 1941-ci il iyunun 17-nə kimi döyüşə tam hazır vəziyyətə gətirilmişdi.

SSRİ tərəfindən müharibənin əvvəllərində Barens dənizindən Qara dənizədək sərhəd xəttinin tərkibi 26800 nəfərdən ibarət olan dörd sərhədyanı dairənin qoşunları mühafizə edilirdi. Bu dairələrin tərkibində 170 diviziya və 2 briqada, 37,5 min top və minaatan, 1475 KV və T-34 tipli yeni tank, 1540 yeni tipli təyyarə var idi.

Böyük Vətən müharibəsi 3 mərhələyə bölünərək 1941-ci il 22 iyun-1942-ci il 18 noyabr, 1941-ci il 19 noyabr-1943 cü ilin sonu və nəhayət, 1944-cü il yanvar-1945-ci il 9 may tarixlərini əhatə etdi. Beləliklə, Böyük Vətən müharibəsi başlandı və Sovet xalqı 1418 gün ağır sınaqlara, dözülməz məşəqqətlərə qəhrəmancasına sinə gərdi, ağrılı-acılı günlərə dözərək, bütün qüvvələrini və ehtiyat imkanlarını maksimum səfərbərliyə alaraq, nəhəng qüvvəyə malik olan düşmənlə ölüm-dirim savaşına qatıldı.

Alman faşist işğalçılarına qarşı İkinci Dünya müharibəsinin ağır illərində sinəsini sipər edərək, dünyanın faşizm köləliyindən xilas edilməsində minlərlə həmvətənimiz tarixə öz qəhrəmanlıq salnaməsini yazdı. Faşist Almaniyasının planlarına görə, Qafqazı işğal etmək üçün yaradılmış və general-feldmarşal Listin komandanlıq etdiyi "A" ordu qrupunun 1-ci tank ordusu 1942-ci il sentyabrın 6-da Qroznı-Mahaçqala-Bakı istiqamətində hücuma keçib sentyabrın 25-də Bakını tutmalı idi. A.Hitlerin əsas məqsədi Bakını faşist Almaniyasını yanacaqla təmin edən mərkəzə çevirmək olmuşdu. 1942-ci il sentyabrın 9-da Cənubi Qafqaz respublikalarında, o cümlədən Azərbaycanda hərbi vəziyyət elan olundu və Bakı müdafiə rayonu yaradıldı. 1942-ci ildə faşistlər 71 dəfə Bakı səmasına hücum etmişdi və bu hücum cəhdləri Bakı müdafiəçiləri olan qəhrəman zenitçilər tərəfindən qətiyyətlə dəf olunmuşdu.

Azərbaycan, xüsusilə paytaxt Bakı qısa müddətdə hərbi sənaye mərkəzindən birinə çevrildi. Bakıda yerləşən bütün sənaye müəssisələri hərbi rels üzərinə keçirildi. 1941-ci ilin sonunda Bakıda hərbiləşdirilmiş zavodlarda 130 növ silah-sursat, hərbi ləvazimatlar, döyüş texnikası istehsal olunurdu. Leytenant Şmidt adına zavodda ağır çəkili aviasiya bombaları, aeroxizəklər, V.İ.Lenin adına Bakı avtomobil zavodunda 57 mm-lik minamyot, müxtəlif silah hissələri istehsal edilirdi.

Döyüşən ordunun əsas yanacaq mənbəyi Bakı idi. Bakı neftçiləri "Hər şey cəbhə üçün, hər şey qələbə naminə" şüarı altında yüksək əzmkarlıqla çalışır, ön cəbhənin yanacaqla təminatını artırırdılar. Orduya çağırılanları istehsalatda əvəz etmək, neft uğrunda mübarizənin sürətini aşağı salmamaq neft Bakısı zəhmətkeşlərini dərindən düşündürürdü. İstehsalata axışıb gələn təqaüdçülər, evdar qadınlar və yeniyetmələrlə yanaşı, müəllimlər, qulluqçular, tələbələr öz məzuniyyət və tətil günlərində sənayedə çalışırdılar. 20 mindən çox təqaüdçü istehsalata qayıtdı. 1942-ci ilin yayında neft sənayesində çalışanların 33%-ni qadınlar təşkil edirdi. 70 mindən çox gənc oğlan və qız sənaye müəssisələrində işləyirdi. Bakı nefti Sovet ordusunun ən etibarlı dayağı hesab olunurdu. Hələ 1940-cı ildə Azərbaycan SSRİ-də istehsal olunan təyyarə benzininin 80%-ni, neft və liqroin 90%-ni, avtotokar və sənaye sürtkü yağlarının 95%-ni verirdi. 1941-ci ilin iyun ayına nisbətən təyyarə benzininin istehsalı iyulda 121%, oktyabr-noyabr aylarında 200% təşkil edirdi. Neftayıranlar illik neft emalı planını 122,8 % yerinə yetirməyə nail oldular. Yüksək oktanlı benzin istehsalına başlandı. Bütün müharibə dövründə SSRİ-də hasil edilən neftin 70-75 %-i, aviasiya benzininin 85-90 %-i Bakı neftinin payına düşürdü. Demək lazımdır ki, ümumiyyətlə, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Bakı neftçiləri ölkəyə 75 mln. ton neft, 22 mln. ton benzin və digər neft məhsulları vermişlər. Onlar 6,5 milyard kubmetr qaz istehsal etmişlər.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi, müharibə illərində hər beş təyyarə, tank və avtomaşından dördü Bakı benzini ilə işləyirdi. Tanınmış dövlət xadimi N.Voznesenski yazırdı ki, Bakı cəbhəni və ölkənin xalq təsərrüfatını neft məhsulları ilə fasiləsiz təmin edir, havada və yerdə yüz minlərlə motoru hərəkətə gətirirdi. Görkəmli sovet sərkərdələri və marşalları G.G.Jukov, R.Y.Malinovski, T.İ.Tolbuxin və başqaları Bakının Böyük Vətən müharibəsi illərində faşist Almaniyası üzərində qələbəyə nail olunmasında mühüm rolunu dönə-dönə qeyd etmişlər. Marşal G.G.Jukov yazırdı: "Bakı neftçiləri cəbhəyə və ölkəyə Vətənimizin müdafiəsi üçün, düşmən üzərində tezliklə qələbə üçün nə qədər lazım idi, o qədər yanacaq vermişdilər". Bakıda dəmiryol işçiləri gecə-gündüz yorulmadan işləyir, qələbə naminə yüksək əmək göstəricilərinə nail oldular. Onlar 1mln. 300 min vaqon yük, o cümlədən 600 min sistern benzin və neft məhsulları, Xəzər dənizçiləri isə 20 mln. ton müxtəlif yüklərin daşınmasını təmin etdilər. Görkəmli kimyaçı alim Yusif Məmmədəliyevin rəhbərliyi altında 100 növ neft-kimya məhsullarının, 36 növ yağın, 9 adda aviabenzinin və 8 növ dizel yağının istehsalına nail oldular. Böyük Vətən müharibəsi illərində neft sənayesində 18507 ixtira və səmərələşdirici təklif verildi ki, bunların yarıdan çoxu istehsalatda tətbiq olundu və 144 mln. 402 min manat dövlət vəsaitinə qənaət edilməsinə imkan verdi. Arxa cəbhədə Bakı zəhmətkeşlərinin göstərdiyi əmək qəhrəmanlığı da faşizm üzərində qələbəyə böyük töhfə olmuşdu.

Bakı şəhərinin adı Qəhrəman şəhərlər sırasında birinci çəkilməli idi. Lakin o zaman Qəhrəman Bakı neftçilərinin fədakar əməyi lazımınca və düzgün qiymətləndirilmədi. Bakıya Qəhrəman şəhər adı verilmədi. Qələbədən 80 illik zaman keçsə də, Azərbaycan xalqı bu gün də tarixi ədalətin Zəfər qazanacağı ümidi ilə yaşayır...

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan ağır sınaq illərində döyüş salnaməsi yazdı, əmək xariqələri yaratdı

Keçmiş Sovet İttifaqının alman faşizmi üzərində qələbəsindən düz 80 il ötür. Azərbaycan bu qələbənin qazanılmasında misilsiz əmək töhfələri bəxş etmiş və döyüş salnaməsi yazmışdır.

1941-ci il iyunun 22-də faşist Almaniyası Sovet İttifaqına "Barbarossa" əməliyyatı çərçivəsində hücum edib. Bununla da Böyük Vətən müharibəsi başladı. Müharibəyə 600 mindən çox xalqımızın vətənpərvər övladları yollanıb. Onlardan 300 mindən çoxu qəhrəmancasına həlak olub, 130-dan çox azərbaycanlı hərbçi "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb, minlərlə döyüşçü isə müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanın vətənpərvər oğul və qızları Stalinqrad, Kursk və Berlin döyüşlərində Ukrayna, Belarusiya cəbhələrində, Şərqi və Qərbi müqavimət hərəkatında faşist ordusuna qarşı sarsıdıcı zərbələr endirilməsində igidlik, fədakarlıq nümunələri göstəriblər. Xüsusilə, Həzi Aslanovun rəhbərlik etdiyi tank diviziyası düşmənin müqavimətini qırmaqda mühüm rol oynayıb.

Həzi Aslanov gənc yaşlarından hərb sənətinə maraq göstərib. 1932-ci ildə Leninqrad Zirehli Tank Məktəbini bitirən Həzi Aslanov müharibə başlayanda artıq təcrübəli zabit idi. Həzi Aslanov müharibənin ilk illərindən etibarən Qərb cəbhəsində döyüşlərə qatılıb və qısa müddətdə komandirlik bacarığı ilə fərqlənib. Həzi Aslanovun tank briqadası düşmən cəbhəsini yararaq sovet ordusunun əks-hücuma keçməsində mühüm rol oynayıb. Onun tətbiq etdiyi "tanker qılıncı" adlanan manevr taktikası ilə düşmən mühasirəyə alınaraq darmadağın edilib. O, hər zaman döyüşçülərinə ön cəbhədə rəhbərlik edib. Bu da onun döyüşçülərində böyük ruh yüksəkliyi yaradıb. Həzi Aslanovun ən böyük qəhrəmanlıqlarından biri də Stalinqrad döyüşlərində olub. O, alman ordusunun mühasirəyə alınmasında və darmadağın edilməsində qəhrəmanlıq və fədakarlıq nümunələri göstərib. Stalinqrad döyüşü onun qəhrəmanlıq səhifələrindən biri olub.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov həm vətənpərvərliyinə, zəkasına, biliyinə görə, həm də hərbi peşəyə böyük hörmət və məhəbbətinə görə zabitlik peşəsini seçib və Qafqaz dağlarından Pribaltikaya qədər olan döyüşlərdə iştirak edib. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Həzi Aslanov haqqında fikirləri-ni söyləyərkən qeyd etmişdi: "Həzi Aslanov öz qəhrəmanlıq, cəsurluq nümunələri ilə Azərbaycan xalqını dünyada tanıtmış bir şəxsiyyətdir. Həm döyüşçü, həm sərkərdə, general, həm də vətənpərvər bir insan, Vətəninə sədaqətlə son nəfəsinə qədər döyüşmüş, həlak olmuş həmvətənlimiz Həzi Aslanov bizim üçün daim əziz olub və gələcək nəsillər üçün də əziz olacaqdır".

Ulu Öndər Heydər Əliyev dövlətimizə rəhbərliyi dövründə hər il mayın 9-da Həzi Aslanovun məzarını ziyarət edərək onun ailə üzvləri ilə görüşər və bununla da Qələbə Günü münasibətilə keçiriləcək tədbirlərə start verilərdi. Bu gün isə Ümummilli Lider Heydər Əliyevin müqəddəs irsinin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Böyük Vətən müharibəsi veteranlarına, onların ailələrinə diqqət və qayğısını əsirgəmir.

Böyük Vətən müharibəsi Sovet İttifaqı və alman faşizmi arasında gedən dünya tarixinin ən qanlı müharibələrindən biri idi. Bu müharibədə Sovet İttifaqının qələbəsini təmin edən əsas amillərdən biri də arxa cəbhə ilə ön cəbhənin vahid döyüş prinsipləri olmuşdu. "Hər şey cəbhə üçün, hər şey qələbə naminə" şüarı sovet xalqlarını alman faşizmini məhv etməklə birləşdirdi. Azərbaycanın enerji ehtiyatları, xüsusilə Bakı nefti və Azərbaycanın mərd oğul və qızları bu qələbənin əldə edilməsində mühüm rol oynadılar. Müharibə zamanı sovet ordusunun təyyarələrinin, tanklarının və avtomobillərinin fasiləsiz işləməsi üçün Bakı neftinin 75 faizi cəbhəyə göndərilirdi.

Böyük Vətən müharibəsi zamanı Azərbaycan qadınları həm ön cəbhədə, həm də arxa cəbhədə qələbənin qazanılmasına misilsiz töhfələr bəxş etdilər. Bu fədakar qadınlardan biri snayperçi Ziba Qəniyeva Berlinə qədər şanlı döyüş yolu keçərək böyük qəhrəmanlıq nümayiş etdirdi. Eyni zamanda, Azərbaycan qadınları gecə-gündüz zavod və fabriklərdə çalışaraq cəbhəni yanacaq, silah və geyim ilə təmin edirdilər.

1945-ci ilin aprelində sovet qoşunları Berlinə doğru irəlilədi. Mayın 9-da Almaniya tam təslim oldu. Sovet İttifaqının bu müharibədə qələbəsi dünya tarixində həlledici rol oynadı. Faşizmin məğlub edilməsi ilə Avropada yeni beynəlxalq nizam formalaşdı və bununla da BMT-nin yaranmasına zərurət yarandı. Sovet xalqının və ordusunun göstərdiyi qəhrəmanlıq gələcək nəsillər üçün nümunəyə çevrildi.

Qazanılan qələbə həm də Sovet İttifaqına daxil olan respublikaların xalqlarının gücünü və qətiyyətini nümayiş etdirdi. Böyük Vətən müharibəsinin dərsləri bu gün də aktualdır. Faşizm və radikal ideologiyaların yayılmasının qarşısını almaq, sülh və təhlükəsizliyi qorumaq hər bir ölkənin və xalqın borcudur. Müharibənin 80 illiyi ilə əlaqədar keçirilən tədbirlər bu tarixi yaddaşı qorumağa və gələcək nəsillərə ötürməyə xidmət edir.

Bu gün dünyada geosiyasi gərginliklər fonunda Böyük Vətən müharibəsi - faşizm üzərində tarixi qələbə bir daha göstərdi ki, birlik, əzm və fədakarlıq bəşəriyyətin ən böyük çətinliklərinin öhdəsindən gəlməyə qadirdir.

Sovet İttifaqının Böyük Vətən müharibəsində qazandığı qələbə tarixin ən parlaq səhifələrindən biridir. 80 ildən sonra da bu qələbə heç də əhəmiyyətini itirməyib. Müharibədə həlak olanların xatirəsi daim yad edilir, tarixi həqiqətlər qorunur və gələcək nəsillərə ötürülür. 90 il, 100 il, əsrlər ötsə də, bu tarixi ənənə davam edəcək.

Mayın 9-da Qələbə Gününü qeyd edərkən həm də sülhün və beynəlxalq əməkdaşlığın vacibliyini unutmamalıyıq. Qələbənin 80 illiyi bu böyük tarixi hadisənin əhəmiyyətini bir daha xatırlamaq və dünyada sülhə töhfə vermək üçün bir fürsətdir.

2025-ci il mayın 9-da Moskvada Böyük Vətən müharibəsində Sovet İttifaqının faşizm üzərində qələbənin 80 illiyi təntənəli surətdə qeyd ediləcək. Bu müharibə 1941-ci ilin 22 iyunundan 1945-ci ilin mayın 9-na qədər davam edib və milyonlarla insanın həyatına son qoyub. Qələbə təkcə keçmiş Sovet İttifaqı üçün deyil, o cümlədən bütün dünya üçün mühüm tarixi hadisədir. Faşizm üzərində qazanılan qələbə yalnız hərbi zəfər deyil, həm də insan iradəsinin, vətənpərvərliyin və fədakarlığın rəmzi kimi tarixə düşüb.

**Kifayət ƏLİYEVA**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# MMU-nun komandası Bakı Marafonunda iştirak edib



Mayın 4-də Bakı şəhərində "Küləyə qalib gəl" şüarı altında "Bakı Marafonu-2025" keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, idmanın inkişafına dəstək göstərmək və sağlam həyat tərzini təbliğ etmək məqsədilə keçirilən marafonda peşəkar və həvəskar idmançılar, tanınmış ictimai-siyasi xadimlərlə yanaşı, Milli Müdafiə Universitetinin (MMU) tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitutdan 25 nəfərdən ibarət heyət iştirak edib.

Start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında olan marafonda MMU-nun komandası 21 kilometrlik məsafəni inamla və əzmlə qət edərək yarışa xüsusi ruh, intizam qatıb.

Tədbir boyunca gənc hərbçilər öz fiziki hazırlıqları və vətənpərvərlik ruhları ilə diqqət çəkib. Marafona qatılmaqla



onlar cəmiyyətə sağlam həyat tərzinin, mütəmadi idmanın və vətəndaş həmrəyliyinin vacibliyini bir daha nümayiş etdiriblər.

Qeyd edək ki, MMU-nun tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrinə sənəd qəbulu mayın 30-dək davam edəcək.

# Bütün tapşırıqlar müvəffəqiyyətlə icra olundu

(Əvvəli 1-ci səhifədə)

Hər bir silahın özünəməxsus təyinatı var. Yaxın və uzaq məsafələrdə düşmənin canlı qüvvəsini, ehtiyat anbarlarını, döyüş texnikalarını və başqa mühüm obyektlərini məhv etmək artilleriyaçıların qarşısında duran başlıca vəzifədir. Yaxın məsafədə yerləşən və hücum edən düşməni məhv etmək üçün minaatanlar daha təsirlidir. Dağlıq, düzən və meşə ərazilərdə düşmənə sarsıdıcı zərbələr vurmaqla onun hücumunun qarşısını ala bilir. Ən çıxılmaz halda isə düşmən itkilərə düçar olur və planlaşdırdığı hücum istədiyi nəticəni vermir.



Zabit İbrahim İbrahimov onu da bildirdi ki, istənilən hava şəraitindən asılı olmayaraq, düşmənin atəş mövqeyi dəqiq təyin edilir, hədəfə olan məsafə çıxarılır və qərargaha ötürülür. "Atəşin icrası üçün müvafiq qərarın qəbul olunması üçün mövqelərdə yerləşən heyət komandirlərinə göstəriş verilir. O da öz növbəsində tuşlayıcıya komandanı ötürür. Topu və ya minaatanı doldurараq hədəfə doğru istiqamətləndirirlər. Hazır olanda isə heyət komandirinə "Hazırdır!" - deyə məlumat verilir. Növbəti "Atəş!" komandası verildikdən sonra atəş açılır".

İkinci Qarabağ müharibəsində artilleriya bölmələri üzərinə düşən bütün tapşırıqları uğurla yerinə yetiriblər. Onların hər zaman keçirilən məşğələlərə, taktiki təlimlərə və döyüş atışlarına ciddi yanaşdıqları məlumdur. Bu gün də artilleriyaçılar ənənəyə sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlıqlarını artırmaqda davam edirlər. Relyefindən və hava şəraitindən asılı olmayaraq döyüşçülərimiz daim yeniliklərin axtarışındadırlar. Hücum edəcək düşməni qabaqlamaq üçün bütün önləyici tədbirləri tətbiq etməklə onun niyyətinin qarşısını almağa çalışırlar.

Həm yaxın, həm də uzaq mənzilli artilleriya silahlarının tətbiqini müəyyən edənlər peşəkar hərbçilərdir. Onlar əvvəlcə hansı silahın hansı atəş mövqeyində yerləşdirildiyini, həmçinin onun təsir gücünün nəyə qadir olduğunu müəyyən edirlər. Döyüş atışlarının uğurlu alınmasından ötrü, söz yox ki, bu cür təhlillərin əvəzsiz faydası var. Özüyeriyən artilleriya silahlarının döyüş atışları bir qədər fərqli olur. Onlar atəş mövqelərini tez dəyişmək gücünə malik olmaqla yanaşı, atışı da tezləşdirirlər. Bu kimi üstünlükləri olan silahlara ordumuzda daha çox önəm verilir.

Təlimə cəlb olunan minaatan heyətinin fəaliyyəti ilə tanış olmaq da maraq doğuran haldır. Çavuş Samir Məmmədov dedi ki, nəzəri və praktiki dərslərdə qazandığımız bilik və bacarıqlarımız təlimlərdə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməyimizə zəmin yaradır. "Həyəcan siqnalı ilə qalxma, daimi məskunlaşdığımız ərazidən təlim mərkəzinə gəlmə, burada cəmləşmə, atəş mövqeyini seçmə və sonrakı fəaliyyətlərin hamısını uğurla yerinə yetirdik. Şəxsi heyətin hər biri yüksək bacarıq nümayiş etdirdi.

Heyət üzvlərindən əsgərlər Ceyhun İskəndərli, Samir Səfərov, Səid Şahverdiyev, İsmayıl Gözəlov və başqaları üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Əsgər Ceyhun İskəndərli ilk gündən



də qarşıya məqsəd qoyub ki, nümunəvi xidmət etsin. Artilleriya bölməsində tuşlayıcı olmaqdan qürur duyur. O dedi ki, ilk gündən minaatan bölməsində xidmətə başlayıb. Komandirlərdən minaatanın sirlərini öyrənib. Çalışır ki, bundan sonra da bütün incəliklərinə yiyələnsin. Sıralara yeni qoşulan silahdaşlarını da öyrətməyə çalışır. İstəyir ki, minaatan heyətinin üzvü kimi gənc əsgərlər də vəzifələri mükəmməl bilsinlər. Belə olarsa, onlar döyüş tapşırığını mükəmməl yerinə yetirəcəklər.

Əsgər Samir Səfərov da heyət üzvüdür. O da nümunəvi xidmət edən bacarıqlı əsgərlərdəndir. Daşınan artilleriya qurğusunun heyət üzvü olmaqla xidməti vəzifələrinin öhdəsindən layiqincə gəlir.

"Çöl təlimində əvvəl də olmuşam. Bu cür təlimlər bizi daha da mətinləşdirir. Həm fiziki baxımdan, həm də dözümlülük baxımından əsl döyüşçü kimi formalaşdırır, eləcə də təcrübəmiz daha da artır. Söhbət əsnasında əsgər yoldaşlarıma da deyirəm ki, nə qədər bu cür çöl təlimlərində olsaq, fərdi hazırlığımız bir o qədər yüksək olar. Biz burada olanda təhkim edilmiş silahımız haqqında bilik və bacarıqları tez və yaxşı mənimsəyirik. Bu da döyüş qabiliyyətimizin daha da artmasına gətirib çıxarır", - əsgər dedi.

Zabit İbrahim İbrahimovun sözlərinə görə təlimə cəlb olunan hər bir hərbi qulluqçu üzərinə düşən tapşırığı yüksək səviyyədə yerinə yetirməyə çalışır. Onların çalışqanlığı nəticəsində döyüş atışlı təlimdə istədiyimiz nəticəni əldə edə bilirik. Əsgərlərin bu səviyyəyə gəlib çatmasında onun fərdi hazırlığı, təlim məşğələləri, praktiki çalışmalar kimi fəaliyyətlər mühüm yer tutur. Çöl təliminə cəlb olunan şəxsi heyət lazım olan təminatlarla da təmin olunub. Bu kimi təminatlar təlimin uğurlu keçməsi üçün mütləqdir.

Quru qoşunlarının artilleriya bölmələrinin növbəti döyüş atışlı təlimi yüksək səviyyədə həyata keçirilərək başa çatdı. Artilleriyaçılar bununla döyüş hazırlıqlarını yüksəltməklə ordumuzun qüdrətinin daha da artmasına xidmət etmiş oldular.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Ötən həftə 1416,9 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib




Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən aprelin 28-dən mayın 4-dək icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən həftə Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 32, tank əleyhinə 19 mina və 504 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Ötən həftə ərzində 1416,9 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Mayor İsmayılov İlyas İsa oğluna verilmiş MN № 0062646 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Kapitan-leytenant Səfərli Arif Tarif oğluna verilmiş MN № 0066497 nömrəli zabitin şəxsi vəsiqəsi blankı itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
kapitan
Günay TAĞIYEVA

Lisenziya № 361
Sifariş № 198
Nüsxə 3630